# GÖYÇAY İNKİŞAFIN YENİ MƏRHƏLƏSİNDƏ

**(əvvəli ötən sayımızda)**



**Ölkə Prezidentinin 8 oktyabr 2015-ci il tarixli sərəncamına əsasən ayrılmış vəsait hesabına şəhərin mənzil fonduna daxil olan 21, rayon büdcəsinin vəsaiti hesabına 7 çoxmənzilli binada əsaslı təmir işləri aparılmışdır. Hesabat dövründə şəhərin Heydər Əliyev prospektində, Z.Bünyadov, Nizami, Həbibi, Xətai, M.Muradov küçələrində, şəhər qəbirstanlığına aparan yolda, bir sıra çoxmənzilli binaların həyətində yeni asfalt örtüyü salınmışdır.**

Göyçayın Ağsu və Ağdaş istiqamətlərindəki giriş hissələri abadlaşdırılmış, hər iki ərazidə fərdi layihələr əsasında ünvan göstəricisi inşa edilmiş, yaşıllıqlar salınmışdır. 2500 nəfər tamaşaçı tutumu olan mərkəzi rayon stadionu əsaslı yenidən qurulmuş, yeni işıqlandırma sistemi və monitor quraşdırılmış, tribunadaki oturacaqlar yenilənmişdir. Şəhər dindarlarının müraciəti nəzərə alınaraq ”Yuxarı məscid”də təmir işləri aparılmış və məscidin ərazisi abadlaşdırılmışdır. Şəhərin park və xiyabanlarının, mövcud bağların abadlaşdırılması istiqamətində də xeyli işlər görülmüş, Ə.Kərim adına park və şəhidlər xiyabanında lazımi səliqə-səhman yaradılmış, şəhərin bir çox küçələrində yeni çəmənliklər salınmışdır. Ötən il yaşıllaşdırma işlərinə də diqqət artırılmış, şəhərdə, həmçinin Şamaxı-Yevlax avtomagistralının Göyçay rayonunun ərazisindən keçən hissəsinin kənarlarında 25 mindən artıq şam, küknar, çinar, qovaq və meyvə ağacları əkilmişdir.

Kənd yaşayış məntəqələrində də abadlıq, quruculuq işlərinin aparılması, əhalini narahat edən problemlərin aradan qaldırılması istiqamətində bir sıra tədbirlər görülmüşdür.

2016-cı ilin yanvar ayının 30-da Bakı şəhərində Heydər Əliyev Mərkəzində ”Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxış edərək ölkənin iqtisadi vəziyyətini təhlil etmiş, mövcud problemlərin aradan qaldırılması və görüləcək işlər barədə müvafiq tapşırıqlar vermişdir. Prezident ölkənin dayanıqlı inkişafının başlıca amili kimi sahibkarlara geniş meydan verilməsinin, özəl sektorda məhsul istehsalının artırılmasının, bunun üçün dövlət qurumları ilə sahibkarların birgə fəaliyyətinin vacibliyini, sahibkarlara dövlət tərəfindən hər cür dəstəyin veriləcəyini bildirmişdir.

Üçüncü Dövlət Proqramında Göyçay rayonu üzrə nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi sahəsində müəyyən işlər görülmüşdür.

Rayon ərazisində yol infrastrukturunun təkmilləşdirilməsi, kəndlərarası avtomobil yollarının yenidən qurulması istiqamətində əməli tədbirlər görülmüş, 6 kəndi birləşdirən 17,6 km. uzunluğunda Cəyirli-Qızılağac-Yenikənd avtomobil yolunun, Muğanlı-Yevlax avtomagistralının Göyçay rayonu ərazisindən keçən, İsmayıllı-Müsüslü avtomobil yolunun Qaraməryəm kəndinə qədər hissələrinin tikintisi başa çatdırılmış, 19,2 km. uzunluğunda Göyçay-Ucar avtomobil yolu əsaslı təmir edilmiş, 5,5 km. uzunluğunda Mallı-şıxlı-Ərəbşahverdi, 5,6 km. uzunluğunda Müskürlü-Qəbələ Müskürlü, 6,8 km. uzunluğunda Qarabaqqal-Hacalıkənd kədlərarası avtomobil yolları inşa edilmişdir.



Üçüncü Dövlət Proqramı çərçivəsində 2664 yeni iş yeri açılmışdır. Bütövlükdə birinci dövlət proqramı qəbul edilən 2004-cü ildən rayonda 12703 yeni iş yeri açılmışdır ki, bunun da 10659-u və ya 83,9 faizi daimi iş yerləridir.

Rayonda milli-mənəvi və dini dəyərlərə hörmət hissi müqəddəs sayılmaqla bu dəyəri yaşatmaq, rayon əhalisini, xüsusi ilə gənclərin yüksək mənəvi dəyərlər səviyyəsində tərbiyə edilməsi, ”Dini etiqad azadlığı haqqında” Azərbycan Respublikasının qanununa müvafiq olaraq hər bir vətəndaşın dinə münasibətinin özünün müəyyənləşdirilməsi, din etiqadında, dini ayin və mərasimlərin icrasında sərbəst olması şəraitində aparılır.

Rayonda 32 məscid vardır ki, onlardan 18-i dövlət qeydiyyatından keçərək dini icma kimi fəaliyyət göstərir. 6 dini icmanın sənədləri qeydiyyat üçün göndərilmişdir.

Dövlət-din münasibətlərinin tənzimlənməsi, radikal dini qrup və təriqətlərin zərərli təbliğatının qarşısının alınması, milli-mənəvi dəyərlərimizin, tarixi-dini abidələrimizin dini etiqad azadlığını təsdiq edən qanunçuluğun möhkəmləndirilməsi üçün lazımi iş aparılır.

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə daha sonra bu istiqamətdə digər məsələlərin də aktuallığını vurğulayaraq demişdir:

- Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, ölkə Prezidenti tərəfindən 2017-ci il Azərbaycanda ”İslam Həmrəyliyi” ili elan edilmişdir. Mən inanıram ki, rayonumuzun dindanları dini-mənəvi dəyərlərimizin qorunmasına öz layiqli tövhələrini verəcəklər. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev ölkəmizin tolerantlıq ənənələrindən, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə xüsusi önəm verərək 2016-cı ilin ölkədə ”Multikulturalizm ili” elan edilməsi barədə sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə əlaqədar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə seminar-treninq, konfrans və görüşlərin keçirilmiş, ardıcıl olaraq bu sahə üzrə il ərzində dindarların, ağsaqqalların və gənclərin nümayəndələri ilə maraqlı görüşlər, dəyirmi masalar və dinləmələr təşkil olunmuş, ölkə Prezidentinin imzaladığı sərəncam bu sahədə aparılan işlərə təkan və güc vermişdir...

Cari ildə rayonda abadlıq və quruculuq sahəsində də xeyli işlər görüləcəkdir. Heydər Əliyev Mərkəzinin qarşısındaki park daha da genişləndiriləcək, bu ərazidə yeni bayraq muzeyi inşa ediləcək və bayraq meydanı kompleksi yenidən qurulacaqdır. Uzun illər diqqətdən kənarda qalmış Əli Kərim adına şəhər istirahət parkı rayon sakinlərinin və qonaqlarımızın istirahət mərkəzinə çevriləcəkdir. Parkın ərazisində tikinti-abadlıq işləri aparılacaq, ən müasir formalı döşəmə üzlük vurulacaq, yeni işıqlandırma sistemi qurulacaqdır. Burada ana və uşaq kafesi, stol üstü oyunlar, uşaqlar üçün karusel və digər əyləncə avadanlıqları, mədəni güşələr fəaliyyət göstərəcəkdir. Şəhidlər xiyabanı da xeyli abadlaşdırılacaq, burada 20 yanvar, Qarabağ döyüşləri şəhidləri və Azərbaycanların soyqrımı abidəsi kompleks halında bir-birini tamamlayacaqdır. Ən başlıcası respublikada ilk dəfə olaraq bir rayon mərkəzində Fəxri Xiyaban salınacaqdır.

**Sonda M.Səlimzadə demişdir:**

**- Mən ölkə Prezidentini əmin etmək istəyirəm ki, göyçaylılar bundan sonra da rayon icra hakimiyyətinin rəhbərliyi altında möhtərəm cənab Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməklə, bütün qüvvələri ölkə başçısının müəyyən etdiyi sabitlik və inkişaf konsepsiyasının uğurla həyata keçirilməsinə, rayonun iqtisadiyyatının möhkəmləndirilməsinə, əhalinin rifah halının daha da yaxşılaşdırılmasına səfərbər edəcəklər...**

**Məzahir ƏHMƏDZADƏ**



ədalət.-2017.-24 fevral.-S.4